

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

16 aprel 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 14 (3777)


# Ortaq təhlükəsizlik, ortaq güc



## Daxili işlər nazirliklərinin əməkdaşlığı sabitliyə töhfədir

**Qardaş ölkələr arasında enerji, iqtisadiyyat və hərbi sahələrdə olduğu kimi, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizlik istiqamətində də tərəfdaşlıq genişlənir.**

Azərbaycan ilə Türkiyə arasında münasibətlər zamanın sınağından çıxmış, ortaq tarix və mənəvi dəyərlər üzərində qurulmuş möhkəm təməllərə söykənir. Bu münasibətlər qarşılıqlı və real əməkdaşlıq müstəvisində özünü aydın şəkildə göstərir.

Prezident İlham Əliyevin aprelin 9-da Türkiyənin daxili işlər naziri Mustafa Çiftçini qəbul etməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Görüş zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulanıb, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirilib. Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd olunub. Bu xüsusda Azərbaycan və Türkiyənin daxili işlər nazirliklərinin də uğurla əməkdaşlıq etdikləri vurğulanıb.

Ümumilikdə, iki ölkənin daxili işlər orqanları arasında əməkdaşlıq son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Cinayətkarlıqla mübarizə, sərhəd təhlükəsizliyi, terrorizmə qarşı fəaliyyət və informasiya mübadiləsi sahələrində əməkdaşlıq getdikcə genişlənir. Hər iki ölkənin müvafiq qurumları arasında qurulan operativ əlaqələr regionda sabitliyin qorunmasına mühüm töhfə verir. Bu əməkdaşlıq təhlükələrin qarşısını vaxtında almağa və qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə əlverişli imkan yaradır.

Müxtəlif səviyyələrdə keçirilən görüşlər, təlimlər və təcrübə mübadiləsi proqramları nəticəsində peşəkar kadrlar hazırlanır və hər iki ölkənin daxili işlər orqanları müasir çağırışlara daha çevik reaksiya vermək imkanı əldə edir.

Görüş zamanı vurğulanan əsas məqamlardan biri də qarşılıqlı etimad mühitinin yüksək səviyyədə olmasıdır. Bu etimad təkcə siyasi rəhbərlik səviyyəsində deyil, eyni zamanda hüquq-mühafizə orqanlarının gündəlik fəaliyyətində də öz əksini tapır. Birgə əməliyyatlar və əlaqələndirilmiş fəaliyyət mexanizmləri artıq əməkdaşlığın praktiki nəticələrini ortaya qoyur.

Bu münasibətlərin strateji xarakter daşıması onların gələcək inkişaf perspektivlərini də müəyyənləşdirir. Regional təhlükəsizlik məsələlərinin aktuallığı şəraitində Azərbaycan və Türkiyənin birgə fəaliyyəti daha da mühüm əhəmiyyət kəsb edir. Xüsusilə transmilli cinayətkarlıq və qeyri-qanuni miqrasiya kimi çağırışlar qarşısında birgə addımların atılması zərurətə çevrilib.

Daxili işlər orqanları arasında əməkdaşlıq ümumi dövlətlərarası münasibətlərin ayrılmaz hissəsidir. Enerji, iqtisadiyyat və hərbi sahələrdə olduğu kimi, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizlik istiqamətində də tərəfdaşlıq genişlənir. Bu isə "bir millət, iki dövlət" prinsipinin yalnız simvolik ifadə olmadığını, real siyasətdə də öz təsdiqini tapdığını göstərir.

Bu görüş həm də onu deməyə əsas verir ki, Azərbaycan və Türkiyə gələcəkdə də regional sabitliyin qorunması və təhlükəsizliyin təmin olunması naminə birgə addımlarını davam etdirəcək.

# Daxili işlər nazirləri görüşüb

## Nazirliklər arasında əməkdaşlıq yüksək səviyyədədir

**Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Aprelin 9-da nazir Mustafa Çiftçi və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

*(Ardı 2-ci səhifədə)*

# Kriminalistlərin Bakı toplantısı

## Əlaqələrin gücləndirilməsi barədə protokol imzalanıb

**Aprelin 14-də Bakı şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin daxili işlər orqanlarının və digər səlahiyyətli qurumların ekspert-kriminalistik xidmətləri rəhbərlərinin iclası keçirilib.**

Toplantıda Azərbaycanla yanaşı Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistanın nümayəndə heyətləri iştirak edib. Bununla yanaşı MDB məkanında mütəşəkkil cinayətkarlıqla mübarizəni əlaqələndirən Büro və digər beynəlxalq qurumların təmsilçiləri də tədbirə qatılıb.

*(Ardı 2-ci səhifədə)*

# Beynəlxalq Təlim Mərkəzi açılıb

## Prezident və birinci xanım açılışda iştirak ediblər

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər.

Milli Aviasiya Akademiyasının ərazisində yaradılan Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub. Burada hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

# Yeni səfirlər gəlib

## Prezident onların etimadnamələrini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Esvatini Krallığının, Kolumbiya Respublikasının və Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərini qəbul edib.

Səfirlər etimadnamələrini dövlətimizin başçısına təqdim ediblər. Prezident İlham Əliyev səfirlərlə söhbətində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı təmasların artırılması və maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıb.

# Bayram paylaşımı

## Birinci vitse-prezidentdən xristian icmasına təbrik

Birinci vitse-prezident Mehriban Əliyeva Pasxa bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Pasxa bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!".

# Münasibətlər yeni mərhələyə keçir

## Prezident Litvanın Baş naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni qəbul edib.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparılıb, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edilib.

Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub, regional məsələlərə dair fikir mübadiləsi aparılıb.


Mühafizə polisi güvən yaradır 2



Sağlam gələcək naminə 3



Profilinq metodu 4



Polisin böhran vəziyyətində davranışları 4



# Respublika Xəbərləri

### Minatəmizləməyə dəstək göstərilməlidir

Minatəmizləmə işlərinə daha çox geniş beynəlxalq dəstəyin göstərilməsinə təcili ehtiyac var. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Nazirlik qeyd edib ki, 2020-ci ildə Vətən müharibəsindən indiyədək 422 azərbaycanlı minaya düşərək zərər çəkib və ya həyatını itirib.

### Dövlət qulluğunda maaşlar artırılır

Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğləri, əməyin ödəniş səviyyələri üzrə vəzifələr, səviyyə və pillələr üzrə artım faizləri və aylıq vəzifə maaşlarının məbləğləri müəyyən ediləcək. Baş nazir Əli Əsədovun imzaladığı Sərəncama əsasən, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla təkliflərini beş ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidirlər.

### Ödənişli yollarda sürət həddi təsdiqlənib

Ödənişli avtomagistrallarda yuxarı sürət həddi saatda 130 km təsdiqlənib. Belə ki, minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənardakı ödənişli avtomagistrallarda - sürət həddi saatda 130 kilometrdən çox, digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün isə ödənişli avtomagistrallarda maksimum sürət saatda 90 kilometrdən çox olmamalıdır.

### Köçənlərə biznes dəstəyi verilir

Azad edilmiş ərazilərə köçürülən sakinlərdən 800-ə yaxın şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim olunub. Verilən dəstək hesabına onlar kənd təsərrüfatı, istehsal və xidmət sahələrində kiçik ailə biznesləri qurublar. Proqram çərçivəsində iştirakçılara əvvəlcə təlimlər keçirilib.

### Böyük Qayıdışın növbəti köçü...

Ağdərə rayonunun Vəngli, Çıldıran, Aşağı Oratağ, Heyvalı, Çapar və Xocalının Daşbulaq kəndlərinə köç karvanları yola salınıb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə köçən 21 ailəyə yeni evlərinin açarları təqdim edilib.

### Xəzərin suyu içməli olacaq

Sumqayıt yaxınlığında dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisinə başlanılıb. Layihə dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Zavodun illik istehsal gücünün 100 milyon kubmetr olacağı və bunun Bakının su tələbatının təxminən 25 faizini qarşılayacağı bildirilir. .

### Metro xətləri ayrılır

Bakı Metropoliteni Qırmızı və Yaşıl xətlərin ayrılması üçün yeni tunel tikintisinə hazırlaşır. Tikinti zamanı sərnişinlər müəyyən müddət alternativ ictimai nəqliyyatdan istifadə etməli olacaqlar. “Nizami” stansiyası yaşıl xətt üzrə müvəqqəti son dayanacaq olacaq, “28 May” və “Cəfər Cabbarlı” arasında keçid üçün əlavə imkanlar yaradılacaq. Layihə tamamlandıqdan sonra xətlər tam müstəqil işləyəcək, platformalardakı sıxlıq azalacaq və metroda hərəkət daha sürətli və rahat olacaq.

### Rəqəmsal yenilik

Azərbaycanda orta təhsil müəssisələrinin I sinfinə qəbul, habelə fiziki şəxslərin gəlir vergisi bəyanı xidmətlərinin rəqəmsallaşdırılması üzrə yeni mərhələ başlayır. I sinfə qəbul sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası planlaşdırılır və xidmətin gələcəkdə “mygov” platforması üzərindən təqdim olunması nəzərdə tutulur. Eyni zamanda gəlir vergisi bəyanı xidmətinin də bu il rəqəmsal sistemə inteqrasiyası həyata keçiriləcək.

### Avropalı turistlərin sayı artıb

Bu ilin yanvar-fevral aylarında Azərbaycana Avropa ölkələrindən 27 174 turist səfər edib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 17,3 faiz çoxdur. O cümlədən, hesabat dövründə Şərqi Avropa ölkələrindən Azərbaycana 12 878 turist gəlib. Bu da 1 il əvvələ nisbətən 3,3 faiz çoxdur. Şərqi Avropa ölkələri arasında ən çox turist Ukraynadan gəlib.

### Neçə nəfər narkomaniyadan müalicə alır?

Azərbaycanda hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 276, QİÇS-lə Mübarizə Mərkəzində 297, Sumqayıt Narkoloji Mərkəzində 125 nəfər) 698 xəstə müalicə alır. Bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasından bildirilib.

# Daxili işlər nazirləri görüşüb

## Nazirliklər arasında əməkdaşlıq yüksək səviyyədədir

*(Əvvəli 1-ci səhifədə)*

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov türkiyəli həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Vilayət Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə cənab Mustafa Çiftçini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.



O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayaraq rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq-mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv inkişafına daim önəm verdiyini qeyd edib. Bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığı nəzərə çatdırılıb.

Nazir Azərbaycan polisinin və DİN-in Daxili Qoşunlarının ölkədə ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdırıb. V.Eyvazov cənab M.Çiftçinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından və təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib. O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün də iştirak edib.

# Kriminalistlərin Bakı toplantısı

## Əlaqələrin gücləndirilməsi barədə protokol imzalanıb







*(Əvvəli 1-ci səhifədə)*

İclas çərçivəsində ekspert-kriminalistik sahədə əməkdaşlığın genişləndirilməsi əsas müzakirə mövzusu olub. Müasir texnologiyaların tətbiqi, xüsusilə genetik məlumatların mübadiləsi, vahid yanaşmaların formalaşdırılması və kriminalistik uçot sistemlərinin təkmilləşdirilməsinə toxunulub, beynəlxalq informasiya mübadiləsinin genişləndirilməsi istiqamətində atılacaq addımlar ətraflı şəkildə dəyərləndirilib.

Mövcud problemlər və onların həlli yolları üzrə fikir mübadiləsinin aparıldığı tədbirdə genom məlumatlarının paylaşılmasının cinayətlərin açılması və istintaq prosesində mühüm rol oynadığı vurğulanıb, birgə fəaliyyətin gücləndirilməsinin vacibliyi qeyd olunub.

İclasın sonunda əldə olunan razılaşmalar protokolla rəsmiləşdirilib. Sənəddə genetik məlumatların mübadiləsinin genişləndirilməsi, ekspert-kriminalistik sahədə əməkdaşlığın dərinləşdirilməsi və qarşılıqlı informasiya mübadiləsinin intensivləşdirilməsi kimi istiqamətlər öz əksini tapıb. Protokol MDB-yə üzv dövlətlərin daxili işlər orqanlarının və digər səlahiyyətli qurumlarının ekspert-kriminalistik xidmətlərinin rəhbərləri tərəfindən imzalanıb.

# Mühafizə polisi güvən yaradır

## Onlar etibarlı qorumaya təminat verirlər

Hər ilin cinayət statistikası göstərir ki, ölkəmizdə kriminal vəziyyət tam nəzarət altında saxlanılır, bir çox cinayət növlərində hətta davamlı və nəzərəçarpan dərəcədə azalma da müşahidə olunur.

Bununla belə, sosial həyat olan yerdə, şübhəsiz ki, cinayət ehtimalı da həmişə olacaq. Bəzən insanlar mülkiyyət əleyhinə cinayətlərdən qorunmaq üçün kameralar quraşdırmağa çalışırlar. Doğrudur, mənzil və obyektlərin kamera nəzarətində olması çəkindirici təsir yaradır, ancaq təcrübə də göstərir ki, belə kameralar həmişə hadisənin qarşısını almır, daha çox sonradan sübut toplamaqda yararlı olur.

Bu baxımdan mənzil və obyekt sahibləri üçün ən etibarlı qorumanın Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi tərəfindən həyata keçirildiyini qeyd etmək olar.



Çünki mühafizə polisinin texniki vasitələri yüksək həssaslıqla seçilir, quraşdırılan siqnalizasiya evdə və ya obyektdə baş verən ən xırda hərəkətləri belə dərhal qeydə alır. Həyəcan siqnalı aktivləşən kimi məlumat növbətçi hissəyə ötürülür və qısa müddət ərzində polis hadisə yerinə çatır. Üstəlik, özəl mühafizə qurumlarından fərqli olaraq, baş verə biləcək hadisələr nəticəsində mülkiyyətçilərə dəymiş ziyanın ödənilməsinə Baş Mühafizə İdarəsi təminat verir. Bu xidmətin digər mühüm üstünlüyü mülkiyyətçinin əmlakının silahlı şəkildə qorunmasının həyata keçirilməsidir.

Bu günlərdə paytaxtın Səbail rayonu Badamdar qəsəbəsində yerləşən yaşayış evində və Nizami rayonu ərazisində fəaliyyət göstərən ticarət obyektində qeydə alınan iki ayrı hadisə mühafizə polisinin etibarlılığını və operativliyini bir daha təsdiqləyib. Hər iki ünvandan daxil olan həyəcan siqnalları dərhal qeydə alınıb və hadisə yerlərinə qısa müddətdə çatan əməkdaşlar vəziyyəti nəzarətə götürüblər.

Səbail rayonunda baş verən hadisə zamanı şübhəli şəxs evə daxil olduqdan sonra polis əməkdaşlarını görərək pəncərədən həyətə tullanıb, qaçmağa cəhd göstərib. Nizami rayonunda da obyektə daxil olan şəxslər eyni üsulla hadisə yerindən uzaqlaşmaq istəyiblər. Lakin hər iki halda mühafizə polisinin çevik reaksiyası və peşəkarlığı nəticəsində həmin şəxslər qaçmağa imkan tapmadan saxlanılıblar.

Polisin belə çevik reaksiyasını Baş Mühafizə İdarəsinin maddi-texniki bazası və mövcud resursları təmin edir. İdarə yüksək səviyyəli mühafizə xidmətləri təqdim etmək üçün bütün zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Əməkdaşlar müasir nəqliyyatla və rabitə cihazları, silah, həmçinin müdafiə vasitələri ilə tam təchiz ediliblər.

Mühafizə polisinin əməkdaşları müntəzəm olaraq ən yeni avadanlıqlarla təchiz edilmiş idman kompleksində hazırlıq keçir, fiziki və taktiki bacarıqlarını inkişaf etdirirlər. Real şəraitə yaxınlaşdırılmış ekstremal vəziyyətlərdə düzgün reaksiya vermək üçün onlar odlu silahdan istifadə bacarıqlarını da daim təkmilləşdirirlər.

Qeyd etdiyimiz son iki fakt bir daha göstərir ki, polisə həyəcan siqnalı daxil olması ilə əməkdaşların hadisə yerinə çatmasına qədər üç-dörd dəqiqədən artıq vaxt keçmir. Yəni polisin mühafizə etdiyi əmlakdan oğurluğa cəhd edənlərin yeganə “uğuru” uzaqbaşı cinayət başında yaxalanmaq olur.

***Rəşad Mehtiyev***

# Sağlam gələcək naminə

## Polis zərərli vərdişlərə qarşı mübarizəni davam etdirir





Ötən həftə polisin təşəbbüsü və təşkilatçılığı ilə respublikanın təhsil müəssisələrində zərərli vərdişlərə qarşı mübarizə məqsədilə maarifləndirici tədbirlər davam etdirilib.

Paytaxtın Xətai rayonunda yerləşən 257 nömrəli tam orta məktəb və 261 nömrəli məktəb-liseydə, həmçinin Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyi, Texniki-Humanitar Liseyi, Nəsimi rayonunun 14, 111, 151 və 240 nömrəli tam orta məktəblərində şagirdlərlə görüşlər təşkil olunub. Regionlarda isə Mingəçevirdə 17 nömrəli tam orta məktəb, Sabirabadda 4 və 5 saylı məktəblər, Goranboyun Şəfəq və Qarqucaq kənd məktəbləri, Daşkəsənin Bayan kənd məktəbi, Hacıqabulun Atbulaq, Ağacanlı və Padar kənd məktəbləri, eləcə də Biləsuvarın Nəsimi kənd və Lerikin Orand kənd tam orta məktəblərində polislər şagirdlərlə görüşüb.

Əsas diqqətin gənclərin zərərli vərdişlərdən qorunmasına yönəldiyi maarifləndirici görüşlərdə, xüsusən narkomaniyanın insan sağlamlığına və cəmiyyətə vurduğu ağır zərərlər geniş şəkildə izah olunub, bu təhlükənin qarşısının alınmasında maarifləndirmənin rolu vurğulanıb. Bundan başqa, erkən nikahların yaratdığı sosial problemlər, təhsildən uzaqlaşmağa səbəb olan amillər və gənclərin hüquqları barədə şagirdlərə ətraflı məlumatlar verilib.

Tədbirlərdə tütün məmulatlarının sağlamlığa mənfi təsiri, internetdən təhlükəsiz istifadə qaydaları və kibercinayətkarlıqla mübarizə məsələləri, şagirdlərə rəqəmsal mühitdə təhlükəsizlik davranışları, şəxsi məlumatların qorunması və risklərdən yayınma yolları da izah edilib.

Bununla yanaşı, polisdə xidmətə qəbulun təşviqi məqsədilə Polis Akademiyasında təhsil imkanları barədə məlumat təqdim olunub, qəbul qaydaları və yaradılmış şərait diqqətə çatdırılıb.

Görüşlərdə şagirdləri maraqlandıran suallar cavablandırılıb, mövzularla bağlı isə videoçarxlar nümayiş etdirilib.

# Fiziki hazırlıq peşəkarlığı artırır

## Gələcəyin polis zabitləri qarşılaşa biləcəkləri real vəziyyətə hazırdırlar





Polis Akademiyasında kursantlara gələcək xidmət fəaliyyətlərində qarşılaşa biləcəkləri real vəziyyətlərə uyğun olaraq bacarıq və vərdişlərini formalaşdırmaq məqsədilə silahsız özünümüdafiə üzrə praktik seminar keçirilib.

Təlim zamanı kursantlarla təhlükəli vəziyyətlərdə düzgün davranış, çevik qərarvermə və silahsız müdafiə üsulları praktik şəkildə nümayiş etdirilib.

Otuzdan çox kursantın iştirak etdiyi seminarda kursantlar Sirac İsmayılov, Orxan Yusifov, Sənan Zeynalov, Yusif Əbdülov fəallıqları ilə fərqləniblər. Seminarın sonunda seçilən kursantların gələcəkdə "Real Aykido" üzrə beynəlxalq və yerli seminarlara cəlb olunacağı qeyd olunub.

Qeyd edək ki, belə təlimlər kursantların həm fiziki, həm də psixoloji dayanıqlığını daha da artıraraq onları real xidmətə hazır vəziyyətə gətirir.

Son seminar da gələcəyin polis zabitlərini riskli situasiyalara hazırlaşdırmaq baxımından əhəmiyyətli təcrübə olub.

Kursantların fiziki hazırlıq və əlbəyaxa döyüş bacarıqlarının yüksək səviyyədə olması daxili işlər orqanları arasında keçirilən yarışlarda özünü aydın şəkildə göstərir.

# Ani səhlənkarlıq, ömürlük peşmanlıq

## Sadə təhlükəsizlik qaydalarına əməl olunmaması ağır hadisələrə yol aça bilər

Bəzən faciələr böyük səhvlərdən yox, ani diqqətsizlik ucbatından yaranır. Bir neçə gün bundan əvvəl paytaxtın Xətai rayonunda baş verən hadisə qeyd edilən fikirləri bir daha təsdiqlədi.

Belə ki, hadisə zamanı işdən qayıdan ata avtomobilini yol kənarında saxlayır, lakin qapıları bağlamağı unudur. Bu zaman valideyn nəzarətsizliyi nəticəsində ailənin iki azyaşlı övladı maşına daxil olaraq sürətlər qutusuna toxunurlar və nəqliyyat vasitəsi hərəkətə gəlir.

Azyaşlılar avtomobilin hərəkətə gəldiyini gördən sonra nəqliyyat vasitəsini vaxtında tərk edə bilsələr də, faciə qaçılmaz olur. Nəqliyyat vasitəsi irəliləyərək yoldan keçən iki piyadanı vurur və nəticədə onlardan biri həyatını itirir. Bu hadisə təkcə yol hərəkəti təhlükəsizliyi ilə bağlı məsələ deyil, ümumilikdə azyaşlılar üzərində valideyn nəzarətinin nə qədər vacib olduğunu göstərən bir nümunədir. Uşaqların nəzarətsiz qalması bəzən bundan da ağır nəticələrə səbəb ola bilər. Evdə təhlükəli əşyaların, o cümlədən müvafiq icazə sənədləri olan odlu silahların nəzarətsiz saxlanılması, azyaşlıların evdən uzaqlaşaraq itkin düşməsi halları, eləcə də mobil telefonlardan nəzarətsiz istifadə nəticəsində zərərli məzmunlara daxil olmaları halları bu risklər sırasındadır.

### Təhlükə gözlənilmədən gəlir

Bu kimi halların qarşısını almaq üçün polis əməkdaşları yalnız hadisələrə reaksiya verməklə kifayətlənmir, eyni zamanda qabaqlayıcı tədbirləri də gücləndirir. Cəmiyyətdə bənzər hadisələr hər kəs tərəfindən təəssüf doğursa da, polis əməkdaşları mütəmadi olaraq xəbərdarlıqlar edir, profilaktik söhbətlər aparır, mediada yayımlanan çağırışlar və sosial maarifləndirmə proqramları vasitəsilə valideynlərə diqqətli olmaları, azyaşlı övladlarını daim nəzarətdə saxlamaları tövsiyə olunur. Bu çağırışların əsas məqsədi insanların diqqətini mövcud risklərə yönəltməkdir. Xüsusilə nəqliyyatda avtomobillərin park edilməsi zamanı təhlükəsizlik qaydalarına riayət olunması, uşaq oturacaqlarından istifadə edilməsi, nəqliyyat vasitəsinin qapılarının kilidlənməsi və əl əyləcinin çəkilməsi kimi vacib məqamlar daim vurğulanır.

Yol-nəqliyyat hadisələrinin ötən ilin müvafiq dövrü ilə müqayisəsi zamanı statistik göstəricilərdə müşahidə olunan azalma görülən işlərin yüksək nəticəsi kimi qiymətləndirilir.

Ötən ilin ilk üç ayında 172 yol-nəqliyyat hadisəsi qeydə alındığı halda, bu il həmin rəqəm 140-a enib. Bu fərq isə xilas olunan insan həyatları deməkdir.

### Məsuliyyət hər kəsdən başlayır

Həqiqət sadədir: təhlükəsizlik qaydaları vərəq üzərində qalmaq üçün yox, insanların həyatda tətbiq etmələri üçün yazılır. Polis hər zaman vətəndaşın yanında olsa da, riskin yaranmaması ilk növbədə insanın öz şəxsi təhlükəsizliyini düşünərək atdığı addımlardan və davranışlarından asılıdır. Bir çox hallarda qəza və digər təhlükəli vəziyyətlərin əsas səbəbi məhz diqqətsizlik və məsuliyyətsizlik olur. Buna görə də hər bir valideyn bilməlidir ki, uşağın təhlükəsizliyi ilk növbədə onun üzərinə düşür. Uşaqları nəzarətsiz buraxmamaq, onların real həyatda və sosial şəbəkələrdəki əlaqələrinə diqqət yetirmək vacibdir. Sadə təhlükəsizlik tədbirlərinə riayət etməklə hər bir vətəndaş həm öz ailəsini, həm də ətrafdakı insanların həyatını qoruya bilər. Polis isə öz növbəsində ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi, eləcə də qeyd olunan istiqamətlər üzrə profilaktik tədbirləri davam etdirir.

*F.Məmmədova*

# Arzuolunmaz qohum

## Qohumunu qarət edən oğrunu polis ifşa edib

Sabunçu rayonunda evlərdən birində seyfdə saxlanılan 320 min manat pul vəsaitinin oğurlanması barədə zərərçəkmiş şəxsin polisə müraciəti daxil olub. Rayon Polis İdarəsinin 42-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində hadisəni törətməkdə şübhəli bilinən zərərçəkmişin qohumu, 32 yaşlı paytaxt sakini R.Əşrəfov müəyyən olunaraq saxlanılıb.

Faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin oğurluq maddəsi ilə cinayət işi başlanılıb. R.Əşrəfova qeyd edilən maddə ilə ittiham elan edilib və o, təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub. Məhkəmənin qərarı ilə R.Əşrəfovun barəsində həbs qətimkan tədbiri seçilib.

Araşdırmalar davam etdirilir.

# Narkotacirlərin baş tutmayan "ticarəti"

## Növbəti uğurlu narkotik əməliyyatları keçirilib



DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə əməliyyatlar davam etdirilir. Qaradağ rayonu ərazisində keçirilən növbəti tədbir zamanı narkotiklərin qanunsuz dövriyyəsini təşkil etməkdə şübhəli bilinən 39 yaşlı Qurban Əliyev və 41 yaşlı Eşqin Hümbətov saxlanılıblar. Onlardan 42 kiloqram 235 qram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana və 500 ədəd psixotrop tərkibli metadon həbi aşkarlanıb. Araşdırmalarla saxlanılan şəxslərin ölkə ərazisində narkotiklərin satışı ilə məşğul olduqları və bu məqsədlə əsasən, gəncləri narkokuryerliyə cəlb etdikləri müəyyənləşdirilib.

Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən isə əvvəllər məhkum olunmuş 34 yaşlı Ziya Heydərzadə saxlanılıb. Ondan ümumilikdə 17 kiloqram marixuana, heroin, tiryək və metamfetamin aşkarlanıb.

Saxlanılan şəxs ifadəsində narkotikləri paytaxt ərazisində müxtəlif ünvanlara çatdırmaq məqsədilə əldə etdiyini bildirib.

Hər iki faktla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Təbiətin düşməni

## Ağacları kəsən şəxs məsuliyyətə cəlb edilib

Oğuz rayonunun Xaçmazqışlaq kəndi ərazisində 30 ədəd qızılağac ağacının kəsilməsi və təbiətə 6400 manatadək maddi ziyan vurulması ilə bağlı istintaq araşdırmaları aparılır. Polis əməkdaşları tərəfindən həyata keçirilən tədbirlərlə ağacları kəsməkdə şübhəli bilinən 34 yaşlı Cəsur Məmmədli saxlanılıb. Faktla bağlı Oğuz Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Oğruların "alveri"

## Marketdən oğurlayıb yenidən satışa çıxardılar

Paytaxtın Nəsimi, Yasamal və Binəqədi rayonlarında yerləşən üç marketdən oğurluq edilməsi barədə polisə məlumat daxil olub. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə qeyd edilən oğurluq cinayətlərini törətməkdə şübhəli bilinən G.Rzayev, T.Poladov, O.Səfərov, Ç.Quliyev və A.Cəfərzadə müəyyən olunaraq saxlanılıblar. Onların marketlərdən əsasən tütün məmulatları və spirtli içkilər oğurlayaraq digər mağazalara dəyərindən ucuz qiymətə satdıqları məlum olub.

Xəzər rayonunda isə törədilən cibgirlik əməlini üstü açılıb. Hadisədə şübhəli bilinən əvvəllər məhkum olunan 37 yaşlı Z.Kəlfəliyevi saxlayıb. Onun Xəzər rayonunda bir vətəndaşa məxsus içərisində 650 manat və bank kartı olan pul kisəsini ələ keçirdiyi məlum olub.

Həmin şəxsin digər analoji əməllərinin müəyyən edilməsi istiqamətində araşdırmalar davam etdirilir.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Profilinq metodu

## Cinayətkarın psixoloji portreti necə çəkilir?

**Müasir dövrdə cinayətlərin açılması və sübuta yetirilməsində yalnız maddi sübutlara əsaslanmaq bəzi hallarda kifayət etmir. Hadisə yerində əl-barmaq izi tapılmayanda, şahid ifadələri real mənzərəni təsvir etməkdə çətinlik çəkəndə digər üsul və vasitələr köməyə çatır. Məsələn, profilinq metodu kimi.**

Profilinq insanın davranışlarına, hərəkətlərinə, buraxdığı izlərə əsaslanaraq onun psixoloji xüsusiyyətlərini və ehtimal olunan davranışını müəyyən edir.

Bu üsulla cinayətkarın psixoloji portreti qurulur, onun düşüncə tərzi, davranış xüsusiyyətləri, həyat tərzi və hətta gələcək addımları barədə ehtimallar irəli sürülür.

### Profilinq və kriminalistika

Profilinq anlayışı XX əsrin ortalarından etibarən kriminalistikada sistemli şəkildə tətbiq olunmağa başlanılıb. Xüsusilə həmin dövrdə silsilə qətllərin və mürəkkəb cinayətlərin artması hüquq-mühafizə orqanlarını yeni metodlar axtarmağa vadar edib. Beləliklə, ənənəvi sübutların yetərsiz qaldığı hallarda psixoloji analizə əsaslanan bu metod həmin vaxtdan istintaq prosesinə daxil edilib. Zaman keçdikcə profilinq yalnız təcrübəyə deyil, elmi əsaslara söykənərək inkişaf edib və kriminal psixologiya ilə sıx əlaqədə formalaşıb.

### Psixoloji portret necə qurulur?

Bu gün profilinq artıq bir çox ölkələrdə istintaq orqanlarının ayrılmaz tərkib hissəsi hesab olunur.

Profilinq prosesində mütəxəssislər hadisə yerində aşkarlanan bütün detalları sistemli şəkildə təhlil edirlər.

Cinayətin törədilmə üsulu, seçilən qurbanın tipi, hadisənin baş vermə vaxtı və məkanı – bütün bu nüanslar cinayətkarın psixoloji xüsusiyyətləri barədə məlumat verir. Məsələn, planlı və dəqiq həyata keçirilən cinayətlər adətən yüksək intizamlı, səbirli və əvvəlcədən hazırlıq görmüş şəxslərə aid edilir. Əksinə, emosional və xaotik cinayətlər impulsiv, tez qərar verən və psixoloji təzyiq altında olan şəxslərin göstəricisi hesab olunur. Bu cür analizlər nəticəsində cinayətkarın yaş aralığı, sosial statusu və davranış vərdişləri barədə ilkin təsəvvür formalaşır.

### Sübutların oxunması

Cinayətkar hadisə yerində yalnız maddi sübutlar yox, həm də xarakterinin müəyyən çalarlarını özündə əks etdirən davranış izləri də buraxır. Bu izlər onun psixoloji vəziyyəti, qorxu səviyyəsi və təcrübəsi haqqında mühüm məlumat verir. Məsələn, hadisə yerinin necə tərk edilməsi, izlərin gizlədilib-gizlədilməməsi və ya qurbanla davranış forması cinayətkarın düşüncə tərzini açıq şəkildə üzə çıxarır. Təcrübəli profilinq-kriminalist mütəxəssisləri bu cür detalları analiz edərək cinayətkarın nə qədər peşəkar olduğunu və ya təsadüfi hərəkət etdiyini müəyyənləşdirə bilirlər. Bu isə istintaqın daha düzgün istiqamət götürməsinə kömək edir.



### Profilinqin istintaq prosesində əhəmiyyəti

Profilinq birbaşa sübut olmasa da, istintaq üçün mühüm istiqamətverici rol oynayır. Xüsusilə çıxılmaz vəziyyətlərdə bu metod şübhəli şəxslərin dairəsini daraltmağa və resurslardan daha səmərəli istifadə etməyə imkan verir. Düzgün qurulan psixoloji profil bir çox hallarda istintaqın gedişində dönüş yarada bilər.

### Müasir texnologiyalar və profilinqin inkişafı

Son illərdə texnologiyanın sürətli inkişafı profilinq metodunun imkanlarını daha da genişləndirib. Böyük məlumat bazaları, süni intellekt sistemləri və davranış analiz proqramları profilinq prosesini daha dəqiq və effektiv edir. Məsələn, müxtəlif cinayətlərin statistik təhlili aparılaraq oxşar davranış modelləri müəyyən olunur və bu



məlumatlar təcrübədə tətbiq edilir.

Bununla yanaşı, texnologiya nə qədər inkişaf etsə də, insan faktoru – təcrübəli əməkdaşın analitik düşüncəsi və müşahidə qabiliyyəti hələ də həlledici rol oynayır.

Profilinq yalnız mütəxəssislər üçün deyil, bütün polis əməkdaşları üçün faydalı bilik sahəsidir. Əməkdaşın müşahidə qabiliyyəti, detallara diqqəti və insan davranışlarını düzgün qiymətləndirməsi profilinqin əsas elementlərindəndir. Bu bacarıqlar gündəlik xidmət zamanı şübhəli davranışların vaxtında aşkar edilməsinə və potensial təhlükələrin qarşısının alınmasına kömək edir. Peşəkar yanaşma və davamlı təcrübə profilinq bacarıqlarının inkişafında əsas rol oynayır.

Profilinq yalnız cinayətlərin açılmasına deyil, həm də onların qarşısının alınmasına xidmət edir.

Bir daha xatırlatmaq yerinə düşər ki, cinayətkarın düşüncə tərzini anlayaraq onun atacağı addımları əvvəlcədən proqnozlaşdırmaq bəzən ən güclü sübutdan belə daha təsirli nəticə verə bilir.

*Aytən Tahirova*

# Polisin böhran vəziyyətində davranışları

## Doğru qərar təhlükəli anlarda insan həyatını xilas edir




Polis bəzən saniyələr içində qəbul edilən qərarların həlledici rol oynadığı bir peşədir. Bu qərarlar yalnız cinayətkarın saxlanılması ilə yekunlaşmır, həm də insan həyatının qorunmasına xidmət edir. Dünya təcrübəsi göstərir ki, soyuqqanlı olmaq və peşəkar yanaşma ən çətin anlarda həlledici rol oynayır.

### Son qiymətləndirmə zəruridir

ABŞ-də son illərdə geniş müzakirə olunan hallardan birində polis əməkdaşı şübhəli şəxslə qarşılaşarkən onu əlisilahlı hesab edir. Lakin ani qərarla atəş açmaq əvəzinə vəziyyəti dəqiqləşdirməyi üstün tutur. Sonradan müəyyən olunur ki, şəxsin əlindəki əşya həqiqi silah deyil. Bu hadisə ABŞ mediasında "ölümcül güc tətbiq etməzdən əvvəlki zəruri qiymətləndirmə" adı altında geniş işıqlandırılır. Bu qərar bir insanın həyatını xilas etməklə yanaşı, polisin peşəkarlığının nümunəsi kimi təqdim olunur.

### Vaxtında atılan addım

2017-ci ildə Londonda baş verən terror hücumları zamanı polis əməkdaşları saniyələr içində qərar verməli oldular. Hadisə yerinə ilk çatan əməkdaşlar vəziyyəti düzgün qiymətləndirərək ərazidən dərhal mülki şəxslərin uzaqlaşdırılmasını təmin etdilər. Bu operativ qərarlar daha böyük itkilərin qarşısını aldı. Sonradan rəsmi hesabatlarda qeyd olundu ki, ilk dəqiqələrdə atılan doğru addımlar insanların həyatının xilas edilməsində həlledici rol oynayıb.

### Riskin idarə olunması

Almaniyada ictimai asayişin təmini zamanı rast gəlinən hadisələrdə polis əməkdaşlarının davranışları tez-tez nümunə kimi göstərilir. Köln şəhərində baş verən təhlükəli hallardan birində polis əməkdaşları dərhal fiziki müdaxilə etmək əvəzinə vəziyyəti nəzarətdə saxlayaraq əlavə qüvvələrin gəlməsini gözlədilər. Bu qərar vəziyyətin gərginləşməsinin qarşısını aldı və mümkün xəsarətlərin sayını minimuma endirdi.

2016-cı ildə ABŞ-nin Texas ştatının Dallas şəhərində silahlı hücum zamanı isə polis əməkdaşları düzgün mövqe seçimi və vaxtında koordinasiyalı fəaliyyət sayəsində sağ qala biliblər. Hadisə zamanı açıq ərazidə qalmayaraq müdafiə mövqeyinə keçmələri onların həyatını xilas edən əsas amillərdən biri oldu.

### Təcrübə və davamlı təlim

Bu hadisələri birləşdirən əsas amil düzgün qərar vermək bacarığıdır. Bu qərarlar davamlı təlim və təcrübənin nəticəsidir. Polis əməkdaşları üçün ən vacib bacarıqlardan biri vəziyyəti saniyələr içində düzgün qiymətləndirmək, riskləri hesablamaq və ən optimal addımı atmaqdır. Bu isə həm nəzəri bilik, həm də yüksək səviyyəli praktiki hazırlıq tələb edir.

Dünya təcrübəsi bir daha sübut edir ki, polisin xidmət zamanı hər bir qərarı həyati əhəmiyyət daşıyır. Düzgün verilmiş qərar təkcə bir əməliyyatın uğurla başa çatmasına yox, həm də insan həyatının xilasına xidmət edə bilər. Bu baxımdan polis əməkdaşının silahlarından biri də soyuqqanlı davranış və doğru qərarvermə bacarığıdır.

*Aytən Tahirova*

# Təlimatçıların təlim toplanışı

## Fiziki hazırlıq və xüsusi fiziki hazırlıq üzrə seminarlar keçirilib



Daxili İşlər Nazirliyinin müvafiq əmr və göstərişlərinə uyğun olaraq, daxili işlər orqanlarının ştatdankənar təlimatçıları, eləcə də Nazirliyin təhsil müəssisələrinin fiziki hazırlıq fənni üzrə müəllimləri ilə təlim toplanışları keçirilib.

Seminarların əsas məqsədi əməkdaşların fiziki və xüsusi fiziki hazırlıq səviyyələrinin artırılması, xidməti fəaliyyətlərində peşəkarlıqlarının daha da gücləndirilməsi olub.

Təlimlər DİN-in İdman Cəmiyyətində, eləcə də Gəncə, Şirvan, Mingəçevir, Xaçmaz və Naxçıvan şəhərlərində baş tutub. Prosesə Nazirliyin müxtəlif qurumlarının əməkdaşları cəlb olunub. Təlim proqramı çərçivəsində iştirakçılara fiziki hazırlıq və silahsız özünümüdafiə sahəsində nəzəri və praktiki biliklər aşılanıb. Məşğələlər zamanı xidməti fəaliyyət üçün vacib davranış qaydaları, taktiki yanaşmalar, təhlükəli hallarda özünümüdafiə və əks-hücum üsulları, eləcə də ilkin tibbi yardım mövzuları geniş şəkildə öyrədilib.

Praktiki hissədə hərəkət texnikaları, zərbələr və müdafiə üsulları, silahlı hədələrə qarşı reaksiyalar, müqavimət göstərən şəxslərin zərərsizləşdirilməsi və saxlanılması qaydaları üzrə məşqlər icra olunub.

Ümumilikdə seminar və təlimlərdə 500-dən artıq polis əməkdaşı iştirak edib.

# Kikboksinq çempionatı

## DİN-in komandası açıq birincilikdə 6 qızıl medal qazanıb

Bakıda Azərbaycan Kikboksinq Federasiyasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü il dönümünə həsr olunmuş açıq birincilik keçirilib. Yarışda ölkənin müxtəlif bölgələrini təmsil edən 44 komanda və 400-ə yaxın idmançı qüvvəsini sınayıb. Gərgin və maraqlı idman mübarizəsi şəraitində baş tutan turnir yüksək rəqabət mühiti ilə yadda qalıb.

Daxili İşlər Nazirliyinin Kikboksinq komandası da yarışda fəal iştirak edib. 10 nəfərlik heyətlə mübarizəyə qatılan komanda uğurlu çıxış edərək ümumilikdə 6 qızıl və 4 gümüş medal qazanıb.

# Boks yığması zirvədə

## Polis əməkdaşı üçüncü yerə çıxıb



Azərbaycan boks yığma komandası Bakıda keçirilən beynəlxalq turnirdə uğurlu çıxışı ilə diqqət mərkəzinə düşüb. Yarışda 10 ölkədən 126 kişi və 29 qadın idmançı mübarizə aparıb. Komandanın üzvləri arasında idmanın bu növü ilə məşğul olan polis əməkdaşları da mübarizəyə qoşulublar. Ümumilikdə 14 dəst medal uğrunda keçirilən qarşılaşmalarda komandamız turniri 6 qızıl, 5 gümüş və 10 bürünc medalla başa vurub. Bu nəticə ilə də yığmamız komanda hesabında birinci pilləyə yüksəlib. İkinci yeri Qazaxıstan, üçüncü yeri isə Türkiyə komandası tutub.

Fərdi nəticələrə gəlincə, 50 kiloqram çəki dərəcəsində Sübhan Məmmədov bütün rəqiblərini üstələyərək birinci olub. 65 kiloqramda Zaur Qəhrəmanov ikinci yerə layiq görülüb, DİN Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı birinci taborunun polis nəfəri Rasim Çobanlı isə 75 kiloqram çəki dərəcəsində üçüncü yeri tutub.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik